**Azərbaycanın ev sahibliyi edəcəyi COP29 qlobal iqlim siyasətində yeni dönüş nöqtəsi yarada bilər – AÇIQLAMA**

Qlobal iqlim siyasətinin əsas sütunu olan Paris İqlim Sazişi qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən 1,5°C-yə qədər məhdudlaşdırmaq məqsədi daşıyır. İqlim dəyişikliyinə qarşı bu ambisiyalı hədəf, insanların və planetimizin gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edir. Hədəfə çatmaq üçün dünya ölkələri iqlim tədbirlərini gücləndirmək, karbon emissiyalarını azaltmaq və davamlı inkişaf məqsədlərinə uyğun olaraq yeni siyasətlər tətbiq etmək üçün bir araya gəlməli və əlaqəli şəkildə fəaliyyət göstərməlidir. Buna görə də COP sammitləri kimi qlobal iqlim platformaları vasitəsilə qəbul edilən qərarlar və bu qərarların həyata keçirilməsi olduqca əhəmiyyətlidir.

Bunu AZƏRTAC-a açıqlamasında "Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri, COP29 Təşkilat Komitəsinin üzvü Gülşən Axundova deyib.

COP29-da müzakirə olunacaq yeni iqlim maliyyəsi mexanizmləri kimi mövzuların qlobal səviyyədə iqlim dəyişikliyinə qarşı mübarizədə əsas addımlar olduğunu qeyd edən G.Axundova bu sahədəki irəliləyişlərin dünya ölkələrinin davamlı inkişaf istiqamətindəki mövqeyini gücləndirəcəyinə diqqət çəkib: "Paris İqlim Sazişi 2015-ci ildə imzalanan qlobal iqlim müqaviləsi olaraq, dünyanı iqlim dəyişikliyinin ən ağır təsirlərindən qorumağı hədəfləyir. Bu sazişin əsas məqsədi qlobal istiləşməni sənayedən əvvəlki dövrlə müqayisədə 1,5°C səviyyəsində saxlamaqdır. İqlim alimləri hesab edirlər ki, bu səviyyəni keçdikdə dünyamızda çox daha ciddi iqlim fəlakətləri baş verəcək. Dəniz səviyyəsinin artması, quraqlıq, sel və ekstremal hava hadisələri isə daha da güclənəcək. Bütün bunlar Paris İqlim Sazişini qlobal istiləşmənin qarşısını almaq üçün əməkdaşlıq platformasına çevirir.

Hazırda 1,5°C hədəfinə çatmaq üçün ölkələr Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) vasitəsilə öz iqlim tədbirlərini həyata keçirirlər. Hər bir ölkə bu çərçivədə emissiyalarını azaltmaq və daha davamlı enerji mənbələrinə keçid etmək üçün milli səviyyədə fəaliyyət planları hazırlayır. Lakin göstərilən səylər kifayət deyil və qlobal iqlim dəyişikliyinin təsirləri artmaqda davam edir. İndi daha çox ambisiya və güclü iqlim tədbirləri tələb olunur. Paris İqlim Sazişinin tələb etdiyi 1,5°C hədəfi, xüsusilə həssas və inkişaf etməkdə olan ölkələr üçün həyati əhəmiyyət daşıyır. Kiçik ada dövlətləri və inkişaf etməkdə olan ölkələr iqlim dəyişikliyinin ən ciddi təsirlərini hiss edirlər. Burada əsas məqsəd heç bir ölkənin bu mübarizədən kənarda qalmaması üçün şərait yaratmaqdır. İqlim tədbirləri hər bir ölkə üçün xüsusi olaraq nəzərdə tutulmalı və fərqli ehtiyaclara uyğunlaşdırılmalıdır".

COP sammitlərinin Paris İqlim Sazişinin müddəalarını yerinə yetirmək üçün qlobal səviyyədə ölkələrin bir araya gəldiyi ən vacib platforma olduğunu bildirən G.Axundova deyib: "Sammitlər vasitəsilə dövlətlər iqlim tədbirləri ilə bağlı müzakirələr aparır, razılaşmalar əldə edir və iqlim dəyişikliyi ilə bağlı qlobal siyasətləri müəyyənləşdirirlər. Azərbaycanın ev sahibliyi edəcəyi COP29 qlobal iqlim siyasətində yeni dönüş nöqtəsi ola bilər.

COP sammitlərinə ev sahibliyi edən ölkələr arasında əlaqələri gücləndirmək üçün "COP Sədrlikləri Üçlüyü" formatı yaradılıb. Bu format BƏƏ (COP28), Azərbaycan (COP29) və Braziliya (COP30) kimi COP sammitlərinə ev sahibliyi edən ölkələrin birgə əməkdaşlığına, iqlim tədbirlərini əlaqələndirməsinə və davamlı irəliləyiş əldə etməsinə imkan yaradır. Bu üçlü tərəfdaşlıq iqlim dəyişikliyi ilə bağlı qlobal səylərin koordinasiyasını gücləndirmək və NDC-lərin icrasını sürətləndirmək üçün də xüsusi əhəmiyyətə malikdir.

COP29 çərçivəsində Azərbaycanın liderliyi ilə "COP Sədrlikləri Üçlüyü" iqlim tədbirləri üzrə daha iddialı planların həyata keçirilməsi üçün NDC-lərə yönələn yol xəritəsinin hazırlanması ilə bağlı konkret addımlar atacaq. NDC-lərin növbəti mərhələsi, xüsusilə qlobal istiləşmənin 1,5°C səviyyəsində saxlanması üçün daha güclü tədbirlərin görülməsini tələb edir. Bu yol xəritəsi hər bir ölkənin öz milli hədəflərini daha da inkişaf etdirməsi və ambisiyalarını artırması üçün bir platforma təmin edəcək.

Bu çərçivədə ən vacib məsələlərdən biri, ölkələrin iqlim tədbirlərini sürətləndirmək üçün əlavə maliyyə resurslarına ehtiyacının olmasıdır. İnkişaf etmiş ölkələr, xüsusilə ABŞ və Avropa İttifaqı kimi böyük iqtisadi güclər, iqlim dəyişikliyinə qarşı mübarizədə daha çox maliyyə dəstəyi təmin etməlidir.

İqlim dəyişikliyinə qarşı qlobal mübarizədə ən böyük çətinliklərdən biri iqlim tədbirlərini həyata keçirmək üçün tələb olunan maliyyə resurslarının qeyri-bərabər paylanılmasıdır. İnkişaf etmiş ölkələr texnoloji infrastruktur və maliyyə resurslarına sahib olsalar da, inkişaf etməkdə olan ölkələr iqlim tədbirlərini həyata keçirməkdə çətinliklərlə üzləşir. İqlim dəyişikliyinə ən çox məruz qalan və ən az

məsuliyyət daşıyan inkişaf etməkdə olan ölkələrə daha çox maliyyə dəstəyi verilməsi bu mübarizədə ədalətin təmin edilməsi istiqamətində vacib addımdır”.

G.Axundova COP29-da əsas müzakirə mövzularından birinin iqlim maliyyəsi olacağına diqqət çəkib: “Bu sahədə yenilikçi maliyyə mexanizmlərinin yaradılması və qlobal səviyyədə maliyyə axınlarının ədalətli şəkildə paylanması məsələləri ön plandadır. İqlim dəyişikliyinə qarşı qlobal səviyyədə mübarizə aparmaq üçün böyük miqdarda maliyyə resurslarının səfərbər edilməsi vacibdir. Xüsusilə inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliklərinə uyğunlaşmasına və karbon emissiyalarını azaltmasına dəstək göstərmək üçün iqlim maliyyəsi mexanizmləri gücləndirilməlidir.

COP29 çərçivəsində yeni iqlim maliyyəsi mexanizmlərinin yaradılması ilə bağlı bir sıra təkliflər təqdim ediləcək. Bu təkliflər arasında Yaşıl İqlim Fondunun gücləndirilməsi və qlobal iqlim maliyyə axınlarının artırılması əsas prioritetdir. Yaşıl İqlim Fondu inkişaf etməkdə olan ölkələrə iqlim tədbirlərini həyata keçirmək üçün maliyyə dəstəyi göstərən qlobal mexanizmdir. Bu fondun maliyyə resurslarının artırılması və yeni donor ölkələrin cəlb edilməsi iqlim dəyişikliyinə qarşı mübarizədə daha çox təsirli addımlar atmağa imkan yaradacaq.

Bundan əlavə, COP29-da digər bir yenilikçi maliyyə mexanizmi olaraq Zərərlər və Tələfat Fondunun yaradılması müzakirə ediləcək. Fondun məqsədi iqlim dəyişikliyinin ağır təsirlərinə məruz qalan ölkələrə kompensasiya və maliyyə dəstəyi göstərməkdir.

COP29 çərçivəsində iqlim maliyyəsinin ədalətli şəkildə bölüşdürülməsi, maliyyə resurslarının inkişaf etməkdə olan ölkələrə yönləndirilməsi və qlobal səviyyədə iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərinin maliyyələşdirilməsi istiqamətində mühüm qərarlar qəbul ediləcək. Bu qərarlar, qlobal iqlim siyasətində ədalətli və davamlı bir sistemin qurulmasına mühüm töhfə verəcək”.

**AZƏRTAC**
**2024, 17 sentyabr**